# Yol tikintisi sürətlə davam edir

Rayonumuzda uzunluğu 19 kilometr olan Böyük Əmili-Kiçik Əmili-Zalam-Yenikənd-Bılıx-Əmirvan avtomobil yolunun yenidən qurulması işləri sürətlə davam edir.

Layihədə yolda olan 7 ədəd suötürücü boru, dəmir-beton boru başlıqlarının tikilməsi nəzərdə tutulub. Həmçinin layihədə Qaraçay üzərində yerləşən köhnə körpünün də əsaslı şəkildə təmiri və yenidən qurulması planlaşdırılıb.



Dördüncü texniki dərəcəyə uyğun yenidən qurulan yolun hərəkət hissəsinin eni 6 metr, hər bir istiqamət üzrə çiyin hissələrin eni 2 metr olmaqla yol yatağının eni 10 metr təşkil edəcək. Hazırda yenidənqurma işləri yolun 12 kilometrlik hissəsində aparılır. Yaxın müddət ərzində analoji işlərin yolun qalan 7 kilometrlik hissəsində də aparılması nəzərdə tutulur.

Yolboyu mövcud köhnə, istismara yaramayan suötürücü boruların sökülməsi, əvəzinə yeni dəmir-beton suötürücü boruların quraşdırılması, dəmir-beton boru başlıqlarının tikilməsi nəzərdə tutulub. Həmçinin layihədə Qaraçay üzərində yerləşən köhnə körpünün də əsaslı şəkildə təmiri və yenidən qurulması planlaşdırılıb.

Başlanğıcını respublika əhəmiyyətli Qəbələ-Ağdaş avtomobil yolundan götürən bu yol 8 mindən çox əhalinin yaşadığı 11 yaşayış məntəqəsini əhatə edir.

Layihənin sonuncu mərhələsində zəruri olan yerlərdə avtobus dayanacaqlarının, əyrixətli dəmir tirlərin, hərəkətin normal təşkili üçün yol nişanlarının, siqnal dirəklərinin və kilometr göstəricilərinin quraşdırılması, eləcə də yol-cizgi və yolgöstərici xətlərinin çəkilməsi nəzərdə tutulur.

**"Qəbələ"**

# Əmək müqaviləsi sosial hüquqların təminatçısıdır

Əmək müqaviləsi işçiyə həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin edən əmək şəraitində işləmək, minimum əməkhaqqından aşağı olmayan əməkhaqqı almaq hüququ verir. Müqavilə ilə işçi, həmçinin qanunvericiliklə müəyyən edilmiş iş vaxtı müddətində çalışmaq, iş vaxtından artıq vaxtda işə cəlb olunduqda əlavə əməkhaqqı almaq və ya onun verilməsini tələb etmək və s. kimi hüquqlara malik olur. Əmək münasibətləri rəsmiləşdirilmədən, qeyri-leqal şəkildə işlərə cəlb olunanlar isə həmin hüquqlardan məhrum olurlar.

Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində müvafiq bildirişin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Həmin qanunla əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxil etmək işəgötürənin vəzifəsi kimi müəyyən edilmişdir.

Əmək haqlarının leqallaşdırılması ilk növbədə vətəndaşların sosial maraqlarının təmin olunmasına yönəldilmişdir və vətəndaşlar işəgötürənlər tərəfindən onlara ödənilən qeyri-leqal əmək haqları ilə razılaşmaqla özlərini gələcəkdə dövlətin sosial təminatından məhrum etmiş olurlar. Əmək haqqını qeyri-leqal alan işçilər məzuniyyət haqqının, xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə ödənilməməsi ilə rastlaşır, ipoteka və digər kreditləri almaq hüququndan və ən əsası gələcəkdə layiqli pensiya təminatından məhrum olurlar.

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və yalnız rəsmi əmək haqqı ödəməyi tələb etməklə hər bir vətəndaş özünün təminatlı gələcəyini indidən düşünmüş olur.

**"Qəbələ"**

# Əmək və əhalinin sosial müdafiəsi naziri Qəbələdə vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev aprelin 12-də Qəbələ rayonunda Qəbələ, Şəki və Oğuz rayonlarının sakinlərini fərdi qaydada qəbul edəcək.

Qəbula gəlmək istəyənlər əvvəlcədən adını, soyadını, atasının adını, müraciətinin məzmununu, yaşadığı ünvanı və telefon nömrəsini göstərməklə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə info@mlspp.gov.az elektron ünvanla və ya 142-Çağrı mərkəzi ilə qəbula yazılmalıdırlar.

# Qəbələ-2500 yaşlı paytaxt şəhərimiz

**(Əvvəli 15 mart 2019-cu il tarixli sayımızda).**

Antik Qəbələdə axtarışlar zamanı iri tikintilərlə yanaşı, şəhərin təsərrüfat, məişət və mədəni həyatını əks



etdirən çoxsaylı digər maddi mədəniyyət qalıqları da aşkar olunmuşdur. Tapıntılar içərisində rəngarəng çeşidli keramika məmulatı, nəfis bəzək əşyaları, Roma, Parfiya və Albaniyada kəsilmiş gümüş pullar, Gürcüstanda zərb olunmuş qızıl pul, ticarət və mədəni əlaqələr yolu ilə gətirilmiş nadir əşyalar da tapılmışdır. Şəhər yaxınlığında tapılmış dəfinələrdən birində isə 700-dən çox gümüş sikkə qeydə alınmışdır. Dəfinədəki ən qədim gətirilmə sikkələr Makedoniyalı İskəndərin draxmaları və Frakiya çarı Lisimaxın tetradraxmalarıdır. Gətirilmə sikkələrin böyük bir qismi e.ə. 187-129-cu illərdə hakimiyyətdə olmuş Selevki hökmdarlarının tetradraxmalarıdır. Dəfinədəki sikkələr arasında bir neçə Parfiya sikkələri və 5 Yunan-Baktriya tetradraxması da qeydə alınıb. Dəfinədəki yerli alban pullarından 3-ü Selevki tetradraxmalarına, 500-dən çoxu Makedoniyalı İskəndərin draxmalarına bənzədilməklə zərb olunub. Həmin tapıntılar sübut etdi ki, bəzi antik müəlliflərin guya albanların pul tanımadığı və yalnız natural mübadilə vasitəsilə həyat sürdüyü barədə yazdıqları həqiqət deyil. Başqa sözlə, albanlar, nəinki pul tanıyırdı, hətta özlərinin zərb etdiyi pullar da kifayət qədər idi. Bütün bunlar isə Antik dövrdə Qəbələdə kifayət qədər yüksək inkişaf səviyyəsi ilə səciyyələnən izdihamlı şəhər həyatı olduğundan xəbər verir.

Qəbələ Antik dövrdə olduğu kimi, orta əsrlərdə də çox mühüm ticarət və sənətkarlıq mərkəzi olaraq qalmaqda idi. Arxeoloji qazıntılar zamanı tapılmış zəngin maddi mədəniyyət nümunələri orada daşişləmə, metalişləmə, sümükişləmə, ağacişləmə, dulusçuluq, şüşə istehsalı, zərgərlik, boyaqçılıq, dabbaqlıq, toxuculuq və bir sıra digər sənət sahələrinin geniş inkişafından xəbər verir. Bütün bunlar Qəbələnin orta əsrlərdə həm də ətraf yaşayış məntəqələrinin əhalisinin sənətkarlıq məhsullarına olan ehtiyaclarını ödəyən çox mühüm ticarət və sənətkarlıq mərkəzi olduğuna dəlalət edir.

Maraqlıdır ki, tədqiqatlar zamanı Qəbələnin Qala və Səlbir ərazilərində də Antik dövrə aid tapıntılar aşkar olunmuşdur. Məsələn, 1974-1978-ci illərdə Səlbirin cənub-qərb küncündə tədqiqat aparılarkən orada eradan əvvəl I əsrə aid çay daşından inşa edilmiş möhtəşəm qala bürcü aşkar edilmişdir. Hündürlüyü 14 metr olan və XI əsrədək şəhərin müdafiə sisteminə xidmət etmiş bu düzbucaq formalı bürc yonulmuş çay daşı və əhəng məhlulu ilə tikilib, daha sonra səliqə ilə yonulmuş tuf daşdan üzlük vurulub. Qeyd olunan bürcdən bir qədər şimal tərəfdə tədqiqatlar davam etdirilərkən isə e.ə. I əsrə aid edilən, uzunluğu 35 metr, hündürlüyü 1 metr, qalınlığı 2,4 metr olan daha bir divar qalığı aşkar olunmuşdur.

2008-2009-cu illərin tədqiqatları zamanı isə şəhərin Qala adlanan ərazisinin cənub-şərq tərəfində, Govurlu çayının kənarında e.ə. I - birinci eranın I əsrlərinə aid qala divarının qalıqları aşkar olunub. 2010-cu ildə Cənubi Koreyadan olan mütəxəssislər şəhərin Səlbir ərazisinin şimal və qərb kənarlarında analoji divar qalıqları üzə çıxarıblar. Bu tapıntılar bir daha deməyə əsas verir ki, "Albaniyanın baş şəhəri" olan Qəbələnin adının Antik mənbələrdə çəkildiyi dövrdə Səlbir və Qala ərazisində ətrafı möhtəşəm qala divarları ilə möhkəmləndirilmiş şəhər mövcud olub.

Bəzi tədqiqatçılar paytaxtın (əslində isə mərzbanın iqamətgahının) Bərdəyə köçürülməsini 461-ci ildə Sasanilər tərəfindən mərzbanlıq üsul-idarəsinin tətbiqi nəticəsində ölkənin iqtisadi və siyasi həyatında Bərdənin rolunun artması, Qəbələnin mövqeyinin zəifləməsi ilə əlaqələndirməyə səy ediblər. Halbuki bu cür düşünmək üçün heç bir ciddi elmi əsas yoxdur. Yəni çoxillik arxeoloji tədqiqatlar göstərir ki, Qəbələdə V əsrdən sonra da intensiv şəhər həyatı davam edib. Şəhərin Qala və Səlbir hissəsində aşkar edilən ən möhtəşəm tikintilər, o cümlədən bu günədək öz əzəmətini qoruyub saxlayan cənub qala divarları və bürcləri də məhz V əsrdən sonrakı dövrdə inşa edilib.

**(Ardı gələn sayımızda).**

## *Həkim məsləhəti*

# Bahar yorğunluğu nədir?

***Qış aylarında yavaşlayan metabolizmada mövsümün dəyişməsi və havanın istiləşməsi ilə əlaqədar bəzi uyğunlaşma problemləri ola bilər. Bu, fərdlərdə yuxusuzluq, stress, yorğunluq kimi problemlər yaradır. Belə vəziyyət həm şəxsi həyatımıza, həm də iş həyatımıza mənfi təsir göstərir.***

### Bahar yorğunluğunun əlamətləri

Xüsusilə yazda, qışın soyuq aylarından sonra havanın isinməyə başlaması insanlarda daha çox yuxusuzluq, cansıxıcılıq və daha çox yorğunluq əlamətləri ilə özünü göstərir. Bu, hətta müntəzəm işlərdə də sıxılmağımıza səbəb ola bilər. Bahar yorğunluğu bahar mövsümünə keçidin ilk vaxtlarında təsirini göstərir. Əgər bu depressiv vəziyyət uzun müddət davam edərsə, bu mövzu üzrə mütəxəssis həkimlərə müraciət olunmalıdır.

### Neqativ hadisələrin təsiri

Mövsümi keçidlər insan hormonlarına təsir edir. Şəxsin stresli bir həyatı varsa, çətin işdə çalışırsa və ya şəxsi həyatında problemləri varsa, bunlar onun bahar mövsümündə mənəvi dəyişiklikləri görmək imkanını artırır. Bəzən qidalanma rejimi və istehlak etdiyimiz qidalar da öz mənfi təsirlərini göstərə bilir. Bu müddət ərzində, şəxsin motivasiyasını yüksək tutması, idman və ya digər faydalı içlərlə məşğul olması şəxsin bahar dövrünə rahat daxil olmasına kömək edir.

### Bahar yorğunluğundan necə qurtula bilərik?

*Yaz mövsümü üçün hazırlıq yaz gəlmədən əvvəl edilməlidir. Bədənimizi gələcək üçün hər mənada hazırlamaq vacibdir.

*Xüsusilə yemək rejimimizdə balans gözlənilməlidir. Protein, vitamin və minerallarla zəngin qidaları istehlak etməliyik.

*Bir çox insanların iş saatları müəyyən bir standartla əlaqəli olduğundan, istirahət və yuxuya vaxt ayırmalı və bu vaxtdan düzgün istifadə etməlidirlər.

*Su bədəndə ən çox ehtiyac duyulan maddələrdən biridir. Buna görə də su istehlakı nəzərə alınmalıdır. Susuz qalan orqanizmdə maddələr mübadiləsi azalır.

*Bahar yorğunluğuna qarşı alınmalı olan ən əhəmiyyətli tədbirlərdən biri də idmandır. Müntəzəm məşqlər metabolizmin sürətləndirilməsinə kömək edir. Bu dövrdə sadə məşqlər, gəzinti, asta qaçış, üzmə və velosiped sürülə bilər. İdman etdiyiniz zaman bədənimiz çox yüklənməməlidir.

**Müsəlim MUSAYEV,**
**həkim-terapevt.**